**Möhsün SƏNANİ—120**

Möhsün Sənani (Cəfərov) 1900-cü ildə Tiflisin "Şeytanbazar" məhəlləsində anadan olmuşdu. Erkən yaşlarında ata-anasını itirmiş , nənəsinin himayəsində böyümüşdü. İlk olaraq mədrəsədə təhsil almışdı. Kiçik yaşlarından işləməyə başlamışdı.

Onda səhnəyə həvəs yeniyetmə vaxtlarından baş qaldırmışdı. Yerli teatrların və Tiflisə qastrola gələn truppaların tamaşalarına böyük həvəslə



# Xatirələrdə yaşayır

***Azərbaycan teatr və kino sənətinin inkişafında məxsusi xidmətləri olan Xalq artisti Möhsün Sənaninin yaradıcılıq bioqrafiyası zəngindir. Onun yaratdığı rollar öz təbiiliyi , yüksək plastikası ilə seçilib. M.Sənani klassik aktyor sənətinin zəngin ənənələrindən bəhrələnərək, öz orijinal ifa üslubunu yaradıb.***

baxırdı. O, həm teatr aktyorlarının oyununa, həm də meydanlarda oxuyan dərvişlərin səsinə fikir verir və onları təqlid edirdi.

Möhsün ilk dəfə tamaşaçı qarşısına 1911-ci ildə çıxıb. Bərk həyəcan keçirsə də, çıxışı tamaşaçılara yaxşı təsir bağışlayıb. 1912-ci ildə həvəskarlar dərnəyinə qoşulub. İlk rejissoru Tiflis müsəlman artistləri dəstəsinin komik aktyoru Mirzəxan Quliyev olub.

1915-ci ildə Möhsün Sənani, Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov və başqaları Tiflis truppasına cəlb edilirlər. Həmin ildə Hüseyn Ərəblinskinin iştirakı ilə hazırlanmış "Gaveyi-Ahəngər" tamaşasında Möhsünə dəmirçi Gavənin oğlunun rolunu tapşırıblar. O, bu rolu çox böyük ustalıqla ifa edib. Vəziyyətinin ağırlığına, maddi ehtiyac içərisində yaşamasına baxmayaraq, bütün peşələrdən əl çəkib, ancaq aktyorluqla məşğul olub. Bu dövrdə Tiflis teatrı truppasında çox məşhur sənətkarlar fəaliyyət göstərirdi. Onların arasında Möhsün Sənani ən gənc aktyor idi. Buna baxmayaraq, az bir zaman içərisində ona Heydər bəy ("Hacı Qara"), Süleyman bəy, Vəli ("Arşın mal alan"), Hambal ("Məşədi İbad"), Rzaqulu ("Nadir Şah"), Kasio ("Otello") kimi məsul rollar tapşırılmışdır. Həmin rollar Sənaninin püxtələşməsində bir sıçrayış yaradır, ona həqiqi aktyor şöhrəti qazandırır. M.Sənani 1915-ci ildən Tiflis teatrının peşəkar truppasında çalışmağa başlayır.

İlk addımlarını bu teatrda atan aktyorlar sonralar Azərbaycana gəlib, burada sənət yollarını davam etdiriblər. Onlardan biri də Möhsün Sənani olub. O, Bakıya 1919-cu ilin iyununda gəlib. Bir qədər həvəskar aktyor kimi çıxış edib, sonra isə dövlət teatrının truppasına qəbul olunub. Möhsün Sənani Milli Dram Teatrında işləməklə yanaşı, 1927-1930-cu illərdə Bakı Türk İşçi Teatrında hazırlanan bir sıra tamaşalarda da oynayıb.

İsgəndər, Mirbağır ağa və Məşədi Oruc ("Ölülər", Cəlil Məmmədquluzadə), Yuri ("İki qardaş", Mixail Lermontov), Nəbi ("Qaçaq Nəbi" Süleyman Rüstəm), Mehdi-Mixaylo ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Edqar, Molkolm ("Kral Lir" və "Maqbet", Vilyam Şekspir), Vano Quliaşvili ("Vətən oğlu", Konstantin Simonov), Eldar ("Vaqif", Səməd Vurğun), Gərşivəz ("Səyavuş", Hüseyn Cavid), Zavyalov ("Çiçəklər yolu", Valentin Katayev), Surxay ("Aydın", Cəfər Cabbarlı), Heydər bəy və Teymur ağa ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Skapen ("Skapenin kələkləri", Jan Batist Molyer), Fiqaro ("Fiqaronun toyu", Pyer Bomarşe), Kavaler Ripafratta ("Mehmanxana sahibəsi", Karlo Haldoni), Həsənağa ("Göz həkimi", İslam Səfərli) və s. rolları ona əsl aktyor şöhrəti gətirib..

Möhsün Sənani teatrla yanaşı, kinomuzun da aparıcı aktyorlarından olub. Çəkildiyi filmlərdə müxtəlif xarakterli obrazlara ekran həyatı verib. Onun çəkildiyi "İsmət", "Kölgələr sürünür", "Dağlarda döyüş", "Koroğlu", "Sehirli xalat", "Kəndlilər" və digər filmlərə tamaşa edənlər bu aktyorun yüksək istedada malik olduğunu bir daha təsdiq edə bilərlər. O, "Kəndlilər" filmində Eldar obrazını yaradıb.

"O olmasın, bu olsun" filmində aktyor qoçu Əsgər obrazını məharətlə yaradıb. Tamaşaçı onun ifasından, həqiqətən razı qalır və həzz alır. "Bir məhəlləli iki oğlan" filmində də o, yaddaqalan rollar ifa edib. "Dağlarda döyüş" filmindəki Qəmbər rolu onun kino yaradıcılığında əhəmiyyətli yer tutur. Sərhədə yaxın kənddə yaşayan Qəmbər kişi öz qızı Hicranı diqqətdən kənar qoymur. Ləyaqətli, mehriban və qayğıkeş ata, ailə başçısıdır. Aktyor öz qəhrəmanının ən kiçik xarakterik cizgilərini belə ustalıqla yaradır.

50 il ərzində səhnədən ayrılmayan Xalq artisti, "Qırmızı əmək bayrağı" ordenli M.Sənani 1981-ci il fevralın 11-də vəfat edib. Onun əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 16 fevral.- S.7.